შეფასებისა და გამოცდების
ეროვნული ცენტრი

iyul, 2025

# İbtidai pillə müəllimləri üçün test

## Riyaziyyat

Təlimat

Qarşınızdaki imtahan testinin elektron bukletidir.

Test iki hissədən ibarətdir – peşə biliyi və akademik qabiliyyət.

Testin maksimal xalı – 53-dir.

Testdə verilmiş tapşırıqlar format baxımından müxtəlifdir. Hər bir tapşırığın təlimatını diqqətlə oxuyun, tapşırığı yerinə yetirmək üçün nə tələb olunduğunu yaxşı düşünün və sonra cavabı seçin və yazın.

**Nəzərə alın:**

- Əgər düzgün cavabla bərabər səhv cavabı da qeyd etsəniz, xal ala bilməyəcəksiniz.

Testdə işləmək üçün sizə 4 saat vaxt verilir. Uğurlar arzulayırıq!

# Fənn biliyi

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35

(1) **1.** Avtobusda bir neçə sərnişin var idi. Birinci dayanacaqdan sonra sərnişinlərin sayı ikiqat artdı, ikinci dayanacaqdan sonra 8 vahid azaldı, üçüncü dayanacaqdan sonra yenə ikiqat artdı, dördüncü dayanacaqdan sonra isə yenə 8 vahid azaldı. Bundan sonra artıq avtobusda sərnişin qalmadı. İlk anda avtobusda neçə sərnişin olub?

ა) 5

ბ) 6

გ) 7

დ) 8

(1) **2.** $A$ 18-in, $B$ 36-nın bölənlər çoxluğunu təşkil edir və $A \cup B$ isə bu çoxluqların birləşməsidir. $A \cup B$ çoxluğunun elementlərinin sayını tapın.

ა) 15

ბ) 13

გ) 11

დ) 9

(1) **3.** $B$ nöqtəsi $y$ oxuna nəzərən $A(3;\ -4)$ nöqtəsinə simmetrikdir, $C$ nöqtəsi isə $x$ oxuna nəzərən $B$ nöqtəsinə simmetrikdir. $C$ nöqtəsinin koordinatlarının cəmi nəyə bərabərdir?

ა) $(-2)$-yə;

ბ) $(-1)$-ə;

გ) 2-yə;

დ) 1-ə.

(1) **4.** $a$ ədədi 6-nın misli olan natural ədəddir, $b$ isə 3-ün misli <u>**olmayan**</u> cüt natural ədəddir. Sadalanan ifadələrdən hansının qiyməti 6-nın mislidir?

ა) $4(a+b)+3(2a+b)$

ბ) $3(2a+b)+4(a+3b)$

გ) $(2a+3b)+2(3a+2b)$

დ) $6(3a+b)+7(2a+b)$

(1) **5.** Əgər $a$ ədədi $b$-dən 3 dəfə böyükdürsə, onda $(5a - 7b)$ ədədi $(2a - b)$ ədədindən neçə dəfə böyükdür?

ა) 1,2

ბ) 1,4

გ) 1,6

დ) 1,8

(1) **6.** Kubun səthinin sahəsi 24 $sm^2$-dir. Bu kubun həcmi nəyə bərabərdir?

ა) 8 $sm^3$-ə;

ბ) 12 $sm^3$-ə;

გ) 48 $sm^3$-ə;

დ) 64 $sm^3$-ə.

(1) **7.** Ədəd oxunda $a$ və $b$ ədədlərinə uyğun gələn nöqtələr arasındakı məsafə 2 vahidə, $b$ və $c$ ədədlərinə uyğun gələn nöqtələr arasındakı məsafə isə 4 vahidə bərabərdir. $a - c$ aşağıda sadalananlardan hansına bərabər **ola bilməz**?

ა) $(-6)$-ya;

ბ) $(-4)$-ə;

გ) $(-2)$-yə;

დ) 2-yə.

(1) **8.** Avtobusda 40 turist var. Onlardan 80%-i ingiliscə, 55%-i isə fransızca danışır. Aşağıdakılardan hansı həm ingilis, həm də fransız dillərində danışan turistlərin sayı ola bilər?

ა) 12

ბ) 16

გ) 24

დ) 28

## Göstəricilərin analizi

Diaqramda mayın 12-dən 18-i də daxil olmaqla su anbarına nə qədər suyun töküldüyü və bu su anbarından istehlakçılara gündəlik nə qədər suyun verildiyi göstərilmişdir.




*Növbəti iki suala bu diaqram əsasında cavab verin.*


Suallara keçid: 9 10

(1) **9.** Mayın 16-dan 18-i də daxil olmaqla istehlakçıya verilən suyun miqdarı mayın 12-dən 14-ü də daxil olmaqla verilən suyun miqdarından neçə min $m^3$- çox olub?

ა) 2

ბ) 4

გ) 6

დ) 8

Diaqrama baxmaq

(1) **10.** Əgər mayın 15-i günün sonunda anbarda suyun miqdarı 18 min $m^3$-ə bərabər idisə, mayın 17-si günün sonunda anbarda neçə min $m^3$ su var idi?

ა) 14

ბ) 16

გ) 20

დ) 22

Diaqrama baxmaq

(1) **11.** $ABC$ üçbucağında $|AB| = |BC|$, $|AC| < |AB|$. Bu üçbucağın bucaqlarının ölçüsü aşağıda sadalananlardan hansına bərabər ola bilər?

ა) $30°,\ 60°,\ 90°$
ბ) $75°,\ 60°,\ 75°$
გ) $50°,\ 50°,\ 80°$
დ) $70°,\ 70°,\ 40°$

(1) **12.** Hər birindən bir ədəd olmaqla yalnız 3, 5, 7 kiloqramlıq çəki daşları var. Bu çəki daşlarını istifadə edərək aşağıdakı neçə kiloqramlıq əşyanı boşqablı tərəzidə çəkə **bilmərik**?

ა) 1

ბ) 2

გ) 6

დ) 9

(1) **13.** Sandro, Nika, Giorgi və Vaja qardaşdırlar.

İki müddəa verilmişdir:

I. Qardaşlardan ən az biri aprel ayında doğulub.

II. Qardaşlardan ən az biri aprel ayında doğulmayıb.

*Aşağıda sadalananlardan hansı* ***mümkün deyil****?*

ა) Hər iki müddəa səhvdir;

ბ) Hər iki müddəa doğrudur;

გ) Birinci müddəa səhv, ikinci isə doğrudur;

დ) Birinci müddəa doğru, ikinci isə səhvdir.

(1) **14.** Verilmiş üç ədəddən birinci ədəd ikinci ədədin $\frac{1}{2}$ hissəsinə, ikinci ədəd isə üçüncü ədədin $\frac{1}{4}$ hissəsinə bərabərdir. Üçüncü ədəd bu ədədlərin cəminin hansı hissəsini təşkil edir?

ა) $\frac{8}{11}$

ბ) $\frac{11}{14}$

გ) $\frac{4}{7}$

დ) $\frac{5}{8}$

(1) **15.** Filiz karxanadan eyni cür maşınlarla daşınır. Hər bir maşın bərabər vaxt intervalında bərabər miqdarda filiz daşıyır. 4 saat ərzində karxanadan 4 maşınla 400 ton filiz daşınıb. 6 saatda 600 ton filiz daşımaq üçün neçə maşın lazımdır?

ა) 3

ბ) 4

გ) 5

დ) 6

(1) **16.** Prizma və piramida verilmişdir. Prizmanın üzlərinin sayı piramidanın təpələrinin sayından 2 dəfə çoxdur. Prizmanın tillərinin sayı piramidanın tillərinin sayından neçə dəfə çoxdur?

ა) 2 dəfə;

ბ) 2,5 dəfə;

გ) 3 dəfə;

დ) 3,5 dəfə.

(1) **17.** Traktorçu birinci gün tarlanın yarısını, ikinci gün tarlanın üçdə birini, üçüncü gün isə qalan 5 hektarı şumladı. Aşağıda sadalanan ifadələrdən hansı tarlanın sahəsinin neçə hektara bərabər olduğunu bizə göstərir?

ა) $\frac{1}{2}+\frac{1}{3}+5$

ბ) $5+1:\left(\frac{1}{2}+\frac{1}{3}\right)$

გ) $5+1:\left(\frac{1}{2}-\frac{1}{3}\right)$

დ) $5:\left(1-\frac{1}{2}-\frac{1}{3}\right)$

(1) **18.** $m$ və $n$ natural ədədlərdir. 3 bərabərsizlik verilib:

**(1)** $\frac{1}{n} > \frac{1}{m} - \frac{1}{10}$; **(2)** $\frac{1}{n} > \frac{1}{m} + \frac{1}{10}$; **(3)** $m > n$.

Sadalananlardan hansı doğrudur?

ა) Əgər **(3)** olarsa, onda **(1)** olar;

ბ) Əgər **(3)** olarsa, onda **(2)** olar;

გ) Əgər **(1)** olarsa, onda **(2)** olar;

დ) Əgər **(1)** olarsa, onda **(3)** olar.

(1) **19.** *A* və *B* məntəqələri bir-biri ilə düzxəttli yol vasitəsilə birləşdirilib. Bu yol üzərində yerləşən *C* məntəqəsindən eyni vaxtda iki avtomobil çıxdı, onlardan birincisi *A* məntəqəsinədək, ikincisi isə *B* məntəqəsinədək bərabər sürətlə hərəkət etdi. Diaqramda hərəkətə başladıqdan sonra keçən zaman ərzində avtomobillər arasındakı məsafənin necə dəyişdiyi göstərilmişdir.

Daha sürətlə hərəkət edən avtomobilin sürəti nəyə bərabərdir?




ა) 50 km/saata;

ბ) 55 km/saata;

გ) 60 km/saata;

დ) 65 km/saata.

# Məlumatların kifayət etməsi

(1) **20.** $x$ ədədi nə 0-a, nə də $(-2)$-yə bərabər deyil.

İki şərt verilmişdir:

I. $x > 1$.

II. $x < 2$.

$\frac{1}{x}$ və $\frac{1}{x+2}$-dən hansının böyük olduğunu müəyyən etmək üçün :

ა) I şərt kifayətdir, II isə kifayət deyil;

ბ) II şərt kifayətdir, I isə kifayət deyil;

გ) I və II şərtlər birlikdə kifayətdir, ayrı-ayrılıqda isə heç biri kifayət deyil;

დ) Ayrı-ayrılıqda həm I, həm də II şərt kifayətdir;

ე) Verilən şərtlər birlikdə götürüldükdə də kifayət deyil.

(1) **21.** Düzbucaqlı formasında torpaq sahəsinin uzunluğu enindən 200 m çoxdur.

İki şərt verilmişdir:

I. Şalva eyni sürətlə hərəkət edərkən bu sahənin uzunluğunu 9 dəqiqəyə, enini isə 6 dəqiqəyə qət etdi.

II. Sandro eyni sürətlə hərəkət edərkən, bu sahənin uzunluğunu qət etmək üçün ona enini qət etmək üçün lazım olan vaxtdan 1,5 dəfə çox vaxt lazım gəldi.

Torpaq sahəsinin ümumi sahəsinin nəyə bərabər olduğunu müəyyən etmək üçün:

ა) I şərt kifayətdir, II isə kifayət deyil;

ბ) II şərt kifayətdir, I isə kifayət deyil;

გ) I və II şərtlər birlikdə kifayətdir, ayrı-ayrılıqda isə heç biri kifayət deyil;

დ) Ayrı-ayrılıqda həm I, həm də II şərt kifayətdir;

ე) Verilən şərtlər birlikdə götürüldükdə də kifayət deyil.

(1) **22.** Dairəvi diaqram turistlərin ölkəyə daxil olarkən neçə faizinin dəmir yolu və neçəsinin hava nəqliyyatından istifadə etdiyini göstərir.




İki şərt verilmişdir:

I. Ölkəyə avtonəqliyyatla daxil olan turistlərin sayı ölkəyə hava yolu ilə daxil olan turistlərin sayından 3 dəfə çox olub.

II. Ölkəyə avtonəqliyyatla daxil olan turistlərin sayı ölkəyə hava yolu ilə daxil olan turistlərin sayından 650 min nəfər çox olub.

Ölkəyə daxil olarkən neçə turistin dəmiryolundan istifadə etdiyini müəyyən etmək üçün:

ა) I şərt kifayətdir, II isə kifayət deyil;

ბ) II şərt kifayətdir, I isə kifayət deyil;

გ) I və II şərtlər birlikdə kifayətdir, ayrı-ayrılıqda isə heç biri kifayət deyil;

დ) Ayrı-ayrılıqda həm I, həm də II şərt kifayətdir;

ე) Verilən şərtlər birlikdə götürüldükdə də kifayət deyil.

(1) **23.** Bərabəryanlı üçbucaq və onun haqqında iki şərt verilmişdir:

I. Üçbucağın bir tərəfinin uzunluğu ikinci tərəfinin uzunluğundan 6 sm çoxdur;

II. Üçbucağın perimetri 30 sm-dir.

Üçbucağın tərəflərinin uzunluqlarının nəyə bərabər olduğunu müəyyən etmək üçün:

ა) I şərt kifayətdir, II isə kifayət deyil;

ბ) II şərt kifayətdir, I isə kifayət deyil;

გ) I və II şərtlər birlikdə kifayətdir, ayrı-ayrılıqda isə heç biri kifayət deyil;

დ) Ayrı-ayrılıqda həm I, həm də II şərt kifayətdir;

ე) Verilən şərtlər birlikdə götürüldükdə də kifayət deyil.

(1) **24.** $m$ dörd sadə ədədin hasilinə bərabərdir.

İki şərt verilmişdir:

I. $m$ ədədi 12-yə qalıqsız bölünür.
II. $m$ ədədi 15-ə qalıqsız bölünür.

$m$ -in nəyə bərabər olduğunu müəyyən etmək üçün :

ა) I şərt kifayətdir, II isə kifayət deyil;
ბ) II şərt kifayətdir, I isə kifayət deyil;
გ) I və II şərtlər birlikdə kifayətdir, ayrı-ayrılıqda isə heç biri kifayət deyil;
დ) Ayrı-ayrılıqda həm I, həm də II şərt kifayətdir;
ე) Verilən şərtlər birlikdə götürüldükdə də kifayət deyil.

(3) **25.** Müəssisə rəhbəri mükafat məbləğini özünün birinci, ikinci və üçüncü müavinlərinə müvafiq olaraq 10:7:3 nisbətində payladı.Əgər o, eyni mükafat məbləğini müavinlərinə müvafiq olaraq 5:3:2 nisbətində paylasaydı, onda müavinlərdən birinə 500 lari daha çox düşərdi. Mükafat məbləği cəmi neçə lariyə bərabər idi?

Cavabınızı əsaslandırın.

(3) **26.** Düzbucaqlı koordinat müstəvisində verilmiş $ABE$ və $CDE$ üçbucaqlarının $A$, $B$, $C$ və $D$ təpələrinin koordinatları tam ədədlər, $E$ təpəsinin koordinatları isə (3,4; 1,2)-dir (Şəkilə baxın). $ABE$ üçbucağının sahəsi $CDE$ üçbucağının sahəsindən neçə dəfə azdır?




Cavabınızı əsaslandırın.

(3) **27.** Buğdanı daşımaq üçün bir neçə göy və bir neçə yaşıl konteynerə yığdılar. Buğdanın yarısını göy konteynerlərə yığdıqdan sonra hər mavi konteynerdə 6 ton, qalan yarısını isə yaşıl konteynerlərə yığdıqdan sonra hər yaşıl konteynerdə 4 ton buğda oldu. Daşınılacaq buğda bu konteynerlər arasında bərabər bölünsəydi, hər konteynerə neçə ton buğda düşərdi?

Cavabınızı əsaslandırın.

(3) **28.** Turist qrupunda cəmi 12 turist olmaqla yalnız çinli və koreyalı turistlər var. Çinli turistlərin yaşlarının ədədi ortası 48-dən, koreyalıların yaşlarının ədədi ortası 21-dən çoxdur, turistlərin hamısının yaşlarının ədədi ortası isə 32-dən azdır. Bu turistlərdən **minimum** neçəsi koreyalıdır?

Cavabınızı əsaslandırın.

(3) **29.** Şagirdlərə aşağıdakı işi təklif etdilər:

1) Hesablayın: I. $68 + 21 + 9$ II. $94 - 27 - 7$

2) Onluq kəsrdən istifadə edərək yazın:

I. 3 sm 7 mm neçə santimetrdir?

II. 5 t 30 kq neçə tondur?

III. 4 dəq 12 san. neçə dəqiqədir?

3) Ana konfetlərin yarısını və əlavə olaraq birini Eleneyə, qalan 7 konfeti isə Salomeyə verdi. Ananın cəmi neçə konfeti var idi?

4) Hovuzla iki boru birləşdirilmişdir. Birinci boru ilə boş hovuz 6 saata dolur, ikinci boru ilə dolu hovuz 2 saata boşalır. Əgər iki borunu da eyni anda açsaq, dolu hovuz neçə saata boşalacaq?

5) Düzbucaqlı 4 kvadrata şəkildə göstərildiyi kimi bölünmüşdür. Bölünmə nəticəsində alınan hər bir balaca kvadratın perimetri 8 sm-ə bərabərdir. Bütöv düzbucaqlının perimetri nəyə bərabərdir?



Növbəti səhifədə şagirdlərdən birinin hazırladığı iş verilmişdir:

1) I. $68 + 21 + 9 = 68 + (21 + 9) = 68 + 30 = 98$

II. $94 - 27 - 7 = 94 - (27 - 7) = 94 - 20 = 74$

2) I. 3,7 sm II. 5,30 t III. 4,12 dəq

3) Ananın $2 \cdot (7 - 1) = 12$ konfeti var idi.

4) 6 saata birinci boru ilə boş hovuz bir dəfə dolacaq, ikinci boru ilə dolu hovuz 3 dəfə boşalacaq. Ona görə də, hər iki borunu açdıqda dolu hovuz $\frac{6}{3+1} = \frac{6}{4} = 1{,}5$ saata, yəni 1 saat 30 dəqiqəyə boşalacaq.

5) $8 : 4 = 2$ sm, uzunluğuna 5 balaca kvadrat, eninə isə 2 balaca kvadrat sığışacaq, perimetri $2 \cdot (5 + 2) = 14$ sm-dir.

- Şagird tərəfindən buraxılmış hər bir səhvi göstərin və düzgün şəkildə yazın.

# Akademik qabiliyyət

## Oxunmuş mətnin dərk edilməsi

*Mətni diqqətlə oxuyun və düşünün. Hər sualın ehtimal olunan cavablarından verilən mətnə görə düzgün variantı seçin.*
*Bu və ya digər sualla tanış olduqdan sonra suala cavab vermək üçün mətnə qayıtmaq, müvafiq parçanı yenidən oxumaq və suala keçmək lazım gələ bilər. Bunu mətnin, eləcə də hər sualın sonunda verilmiş müvafiq qeydi "basmaqla" asanlaşdıra bilərsiniz.*

I Təhsildə qeyri-bərabərlik təhsil imkanları, resursları və müvafiq olaraq, nəticələr baxımından müxtəlif qruplar arasında mövcud olan fərqlərə deyilir. Qeyri-bərabərlik iqtisadi, sosial, gender, etnik və ya digər amillərdən asılı olaraq müxtəlif istiqamətlərdə özünü göstərə bilər. Məsələn, aztəminatlı ailələrdən olan uşaqların yüksək keyiffətli məktəblərə, müəllimlərə, texnologiyaya və əlavə təhsil resurslarına əlçatanlığı kimi təhsil imkanları çox vaxt daha az olur. Bu səbəbdən uğur qazanmaqda çətinlik çəkə bilərlər. Həmçinin bəzi mədəniyyətlərdə mühafizəkar gözləntilər və qadınların cəmiyyətdəki rolu ilə bağlı stereotipik inanclar səbəbindən qızların təhsil almaq imkanları məhduddur.

II Təhsildə qeyri-bərabərlik bilavasitə insan kapitalı indeksi ilə əlaqəlidir. Bu indeks ölkə əhalisinin təhsil və sağlamlıq vəziyyətinin keyfiyyətinin qiymətləndirilməsini əks etdirən göstəricidir. Əgər hər hansı bir ölkənin əhalisi keyfiyyətli təhsil və səhiyyə xidmətləri alırsa, onun "insan kapitalı" yüksəkdir. Bu o deməkdir ki, həmin ölkənin vətəndaşları öz imkanlarını reallaşdırmaq üçün yaxşı şəraitə malikdirlər və bu isə müvafiq olaraq ölkə iqtisadiyyatının gücünü müəyyən edir.

III Belə bir inanc mövcuddur ki, kifayət qədər çox çalışsan, bütün məqsədlərinə çatacaqsan. Nailiyyət bacarıqların, motivasiyanın və zəhmətin nəticəsidir. Müvafiq olaraq, sosial mənşəyindən asılı olmamalıdır. Lakin sosial-iqtisadi vəziyyəti aşağı olan ailələrin uşaqları qeyri-bərabər şəraitə görə çox vaxt öz imkanlarını reallaşdıra bilmirlər. Aztəminatlı ailələr çox vaxt övladlarının təhsilinə böyük sərmayə qoya bilmirlər ki, bu da aşağı keyfiyyətli təhsil və nəticədə bu şagirdlərin əmək bazarında imkanlarının aşağı olması ilə nəticələnir. Bu, sosial-iqtisadi cəhətdən həssas qrupları yüksək səviyyəli təhsilə malik olma ehtimalının daha az olduğu pis dövranı qapalı qrupa çevirən qeyri-bərabərsizliyi yaradır.

Suallara keçid: 30 31 32 33 34

IV Təhsildə qeyri-bərabərlik məsələsi ilə maraqlanan fransız tədqiqatçısı Sebastian Qudo fərqli aspektə diqqət yetirib. Onun araşdırmasına əsasən, qeyri-bərabərlik erkən yaşlarda başlayır. Sosial mənsubiyyət uşağın dərs zamanı verdiyi töhfəyə, həmçinin uşaqların özlərini və başqalarını necə qiymətləndirməsinə təsir göstərir. Məlum olub ki, aşağı sosial təbəqədən olan ailələrin uşaqları yuxarı sosial təbəqədən olan həmyaşıdlarına nisbətən qrup müzakirələrində daha az iştirak edirlər. Bu vəziyyətin uşaqların dil bacarıqlarının olmaması və özünüifadə edə bilməməsi ilə izah edilməməsi mühümdür Aşağı təbəqədən olan ailələrdə adi olan normalar məktəbdə mövcud olan normalara ziddir. Bu cür ailədən olan uşaqların özünüifadə formaları və mədəni təcrübələri sinifdə daha az dəyərləndirilir.Həmin uşaqlar özlərini başqaları ilə müqayisə edir, fərqliliklər, ev və məktəb arasında mədəni uyğunsuzluqlar və onlara qarşı mənfi gözləntilər aşkar edirlər ki, bu da başqaları tərəfindən mühakimə olunmaq qorxusunu gücləndirir və nəticədə özlərini ifadə etməkdən boyun qaçırırlar.

V Təhsilin erkən mərhələsində yaradılan qeyri-bərabər tədris mühiti təhsil karyerası boyu nailiyyət fərqləri üçün mühüm əsaslardan biridir.

Suallara keçid: 30 31 32 33 34

(1) **30.** Birinci abzasda verilən misallar təhsildə qeyri bərabərliyin hansı iki səbəbinin illüstrasiyasıdır?

ა) İqtisadi və etnik;

ბ) Etnik və gender;

გ) İqtisadi və gender;

დ) Sosial və etnik.

Mətinin  I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35

(1) **31.** Sadalananlardan hansıda təhsildəki qeyri-bərabərlik ilə insan kapitalı indeksi arasındakı əlaqə düzgün təqdim olunmuşdur?

ა) Yüksək gəlirli ölkələrdə birmənalı şəkildə əlçatan təhsil və yüksək insan kapitalı indeksi var;

ბ) Əgər ölkədə yüksək insan kapitalı indeksi varsa, bu o deməkdir ki, bu ölkədə aşağı keyfiyyətli təhsil almış şəxs yoxdur;

გ) Yoxsulluq insanların aşağı keyfiyyətli təhsilini şərtləndirir, lakin bunu keyfiyyətli səhiyyə ilə kompensasiya etmək olar, buna görə də insan kapitalına zərər dəyməyəcək;

დ) Əgər insanlar təhsil alarkən müxtəlif şəraitə malik olsalar, onların imkanları az inkişaf edər və buna uyğun olaraq ölkədə insan kapitalı da zərər görər.

Mətinin I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35

(1) **32.** Mətnin üçüncü abzasında oxuyuruq: ,, Nailiyyət bacarıqların, motivasiyanın və zəhmətin nəticəsidir. Sadalananlardan hansı bu fikri **şübhə altında qoyur** ?

ა) Sistematik olaraq dərs buraxan şagirdlər akademik uğur qazana bilmirlər;

ბ) Ana dili ilə məktəbin tədris dili üst-üstə düşməyən şagirdlərin əksəriyyətinin akademik göstəriciləri yüksək deyil;

გ) Tapşırıqları sistemli şəkildə yerinə yetirmək vərdişi formalaşmayan şagirdlər akademik uğur qazana bilmirlər;

დ) Səbirli olmaq qabiliyyəti adekvat formalaşmayan şagirdlərin əksəriyyəti akademik uğur qazanmır.

Mətinin  I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35

(1) **33.** Aşağıdakılardan hansı mətnin dördüncü abzasında təsvir edilən tədqiqatın nəticələrinə əsaslanaraq çıxarılan düzgün nəticədir?

ა) Tədris mühitində öz fərqliliyini dərk etməsi və dəstəyin olmaması uşaqların özünəinamına mənfi təsir göstərir ki, bu da onların imkanlarını reallaşdırmasına mane olur;

ბ) Uşaqların dil səriştəsi və özünüifadə bacarıqlarına əsasən uşaqlar arasındakı təlim fəaliyyətlərinə fərqlər onların cəlb edilməsinə təsir edir, bu da, müvafiq olaraq, təhsilin əlçatanlığı baxımından maneə yaradır;

გ) Sosial siniflərə əsasən uşaqlar arasındakı fərqlər onların müxtəlif mədəni təcrübələri ilə izah olunur ki, bu da qeyri-bərabər təlim mühiti yaradır;

დ) Uşaqların özünüqiymətləndirməsi təlim mühitinə uyğunlaşmaq üçün maneə ola bilməz; qeyri-bərabər təhsil mühiti məktəbdəki bütün uşaqlar üçün eyni normaları yaradır.

Mətinin I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35

(1) **34.** Aşağıdakılardan hansı verilmiş mətnin məqsədi **<u>deyil</u>**?

ა) Bizi təhsildəki qeyri-bərabərliyin müxtəlif səbəbləri ilə tanış etmək;

ბ) Təhsildəki qeyri-bərabərlik və ölkənin iqtisadi gücü arasındakı əlaqənin əhəmiyyətini vurğulamaq;

გ) Bu və ya digər amilin təhsildəki qeyri-bərabərliyə necə və hansı yolla təsir etdiyini izah etmək;

დ) Müasir araşdırmanın nəticələrinə əsasən təhsildəki qeyri-bərabərliyin aradan qaldırılması yollarını müəyyən etmək.

Mətinin I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35

(9) **35. Analitik yazı**

*Tapşırıqda verilən iki bir-birinə zidd müddəa ilə diqqətlə tanış olun. Onlardan birinin lehinə seçim edin. Seçiminizi əsaslandırmaq üçün arqumentlər gətirin və zidd olan müddəanı tənqidi olaraq qiymətləndirin.*

a) Uşaqların müstəqil və yüksək vətəndaş məsuliyyətinə malik şəxs kimi inkişaf etməsi üçün, onlara məktəbdə daha çox azadlıq və avtonomluq verməliyik.

b) Məkətbdə şagirdlərin azadlıq dərəcəsinə sərt şəkildə nəzarət edilməlidir, çünki, o, öz hərəkətlərinin nəticələrini tam dərk etmir və bununla özünə də, başqalarına da ziyan vurur.

*Yazı işi, ən az, 120 sözdən ibarət olmalıdır.*